# TƏLƏBƏLƏRİMİZƏ DƏYƏRLİ TÖHFƏ

***Müstəqil Azərbaycanın sivil dünya ilə əlaqələri gündən-günə genişlənir. Bu əlaqələrin inkişaf etdirilməsində Azərbaycan alimlərinin rolu böyükdür. Müasir dövlətimiz xarici ölkələrlə əməkdaşlığını təkcə iqtisadi, siyasi və sosial əlaqələr üzrə qurmur, təhsil sahəsində də əhəmiyyətli nəticələr əldə edilir. İndiki gəncliyimizin dil bilmə bacarıqları, dünya arenasına çıxa bilmə imkanları da getdikcə genişlənir. Dünyada gedən proseslər tələb edir ki, gəncliyin tərbiyəsində ədəbiyyata, xüsusilə, xarici ədəbiyyata geniş yer verilsin.***

Dünya ədəbiyyatı sahəsində oxunan bədii əsərləri sistemli şəkildə öyrənmək üçün yeni-yeni dərslik və dərs vəsaitlərinə ehtiyac duyulur. Çünki yazılmış bədii əsərin hansı ədəbi cərəyana və ideya istiqamətinə malik olması, məhz dünya ədəbiyyatı üzrə dərsliklərdə və monoqrafiyalarda araşdırılır. Dünya yaradıcılıq sistemində mövcud olan nəzəriyyələr, cərəyanlar və metodları yaradan zaman olsa da, dövrün bədii əsərlərinə tətbiq edən dahi yazıçılardır. Dünya mədəniyyətinin beşiyi olan yunan və Roma ədəbiyyatı Avropaya klassisizm, ilkin maarifçilik cərəyanlarını bəxş etmiş, özləri tarix səhnəsindən uzaqlaşmışlar. Onların bu sahədə ənənəsini Fransa ədəbiyyatı qəbul edib dünya ədəbiyyatına Pyer Kornel, Jan Rasin, Jan Batist Molyer kimi dühalar bəxş etdi. Alman ədəbiyyatında barokko üslubu uzun zaman öz sözünü dedi. Bu girişi təqdim etməkdə məqsədimiz f.ü.e.d., prof. Tərlan Novruzovun və f.ü.e.d. Afaq Nəzərovanın yenicə çapdan çıxmış dərs vəsaitinin bu sahədəki nəzəri bilikləri özündə ehtiva etməsini göstərmək, klassisizm, sentimentalizm, romantizm, realizm və maarifçilik cərəyanlarının nümayəndələrinin bədii əsərlərində əks olunan antik xüsusiyyətləri qeyd etməkdir. Müəlliflər də bu ədəbi cərəyan və üslublara uyğun olaraq, dərs vəsaitində, ilk növbədə, XVII əsrin Fransa, İtaliya və Almaniyasında yetişən yazıçıların yaradıcılığında, barokko və rokokonun ideya istiqamətlərinin dövrün ədəbiyyatına təsirini araşdırmışlar.

Dərs vəsaitinin tərtib olunması qaydası XVII və XVIII əsrlər üzrə olmaqla, ölkə ədəbiyyatlarını birləşdirən cərəyan və üslublara, yazıçı və şairlərin klassisist, sentimentalist, romantik, maarifçilik, realist, qonqorist, marinist, presiozçu və satirik görüşlərinə əsasən həllini tapmışdır.

Avropa ədəbiyyatını bu ədəbi cərəyan və üslublar olmadan təsəvvür etmək olmaz. Məsələn, ədəbi cərəyanlar yazıçıları yetişdirir, formalaşdırır və yazıçılar da öz seçilmiş əsərlərində klassisizmin, maarifçiliyin, sentimentalizmin, realizmin və s. ənənələrini yaşadır. Bu bədii formanı düzgün qəbul edən müəlliflər də Fransa ədəbiyyatında klassisizm və maarifçiliyi Kornelin, Rasinin və Molyerin, italyan ədəbiyyatında Canbatist Marinonun və Kyabreranın, ispan ədəbiyyatında Kalderonun və Lope de Veqanın, alman klassisizmi və barokkosunu Martin Opits, Paul Fleminq, Fridrix Loqau, Andreas Qrifius və b. yaradıcılığında izləmişlər. Üslubları isə şair və yazıçılar sənət və ədəbiyyat meyarına çevirirlər. Məsələn, yeni ədəbi mühitdə barokko üslubu ispan ədəbiyyatında Qonqora qonqorizmi, italyan ədəbiyyatında C.Marino marinizmi yaratmış, fransız ədəbiyyatında isə presionizm yaranmışdır.

Fransa ədəbiyyatı öz zirvəsinə Molyerin yaradıcılığı ilə yüksəlmişdir. Kitabda Molyerin yaradıcılığına yüksək qiymət verilir. XVII əsr Fransa ədəbiyyatında Molyer “Tartüf”, “Skapenin kələkbri”, “Ərlər məktəbi”, “Arvadlar məktəbi”, “Xəsis”, “Mizantrop”, “Don Juan” kimi səhnə əsərləri ilə fransız realist teatrının tərbiyəedici rolunu daha da artırmışdır. Bu əsərlər Molyer dramaturgiyasında ciddi yaradıcılıq nümunələri kimi qiymətləndirilir və Molyer estetizminin mahiyyətini açmağa xidmət edir. Təsadüfi deyil ki, Molyerin estetik görüşlərindən danışan müəlliflər bu əsərlərdəki tərbiyəedici funksiyanın rolunu onun komediyalarında görmüş, fransız meşşan əxlaqının tənqidini fərdi xarakterlərin ifşasını əsas götürmüşlər.

Fransa klassisizminin nümayəndəsi kimi Jan de Lafonten də öz nəsr yaradıcılığı ilə, xüsusən, təmsilləri ilə təhlil obyekti olaraq seçilmişdir. Lafontenin haqqında olan təhlillərdən onun yaradıcılıq həyatının mübariz olduğu görünür. Lafontenin tənqid hədəfləri qoluzorlular, kilsə xadimləri, harın insanlar olmuşdur. Onun “Müqəddəs Malk əsirlikdə”, “Xına” poemalarında humanizmə Bualo özünün “Poeziya sənəti” traktatında yüksək qiymət vermişdir.

Dərs vəsaitində Nikola Bualonun yaradıcılığı haqda qeydlərə də rast gəlirik. Müəlliflər Bualonu fransız şairi, tənqidçisi və ədəbiyyat nəzəriyyəçisi kimi bizə təqdim edirlər. Ədəbiyyat tarixində qədim və orta əsrlərdə Aristoteldən sonra ədəbiyyat nəzəriyyəsi ilə müntəzəm məşğul olan şəxsiyyət Bualo olmuşdur. Buna baxmayaraq, Bualo ədəbiyyat tarixində şair, ədəbiyyat tarixçisi, ədəbiyyatşünas tənqidçi-alim, böyük satirik kimi də yer tutur. T.Novruzov və A.Nəzərova tərəfindən Bualo və Lafonten, Bualo və Rasin, Bualo və Molyer yaradıcılıq əlaqələrinin öyrənilməsini uğurlu qələm təcrübəsi kimi qiymətləndirmək olar. Qeyd etmək olar ki, Bualonun bu cür sənətkar kimi yetişməsində həmin şəxsiyyətlərin rolu danılmazdır. Bualonu tarix özü yetişdirmişdir. Ədəbiyyat tarixi isə onun nəzəri-tənqidi təfəkkürünün formalaşmasında mühüm rol oynamışdır. Bunu Molyerə həsr olunmuş şeirlər, Lafontenin “Cakonda” əsərinə həsr etdiyi tənqid də təsdiq edir. Virtual düşüncədə Horatsi məktublarının Bualonun məktublarına örnək olması barədə fikir T.Novruzovun “Poesiya sənəti” əsərinə dərin yanaşma üsuludur. O, Bualonu tənqidçi kimi daha çox qiymətləndirir. Cəmi 9 məktub və 4 nəğmə Bualo yaradıcılığının bədii estetikasını günümüzədək yaşadan “Poeziya sənəti” poemasının təməlidir.

Müəlliflər klassisizmin, barokkonun “XVII əsr alman ədəbiyyatı”nda izlərini Qrifıusun yaradıcılığına ilkin təsirini, M.Opitsin yaradıcılığında alman poeziyasının ədəbi-estetik tələblərini işıqlandırmışlar. Xüsusilə, barokko poeziyasının A.Qrifius yaradıcılığına ədəbi təsiri diqqət cəlb edir, roman yaradıcılığında barokkonun presiozçu romançılarının - Filipp Seze, İohann Moşeroş, Hans Qrimmelshauzen və başqalarının əhəmiyyətli mövqelərini nəzərə çatdırmış, Lessinqin elmi-nəzəri və elmi-tənqidi fikirlərini təhlil etmiş, teatr, dramaturgiya sahəsində “Hamburq dramaturgiyası” əsərinin mahiyyətini açıqlamışlar.

Müəlliflər klassisizm və barokko ədəbi üslubunun italyan ədəbiyyatında və teatrında oynadığı rola da toxunmuşlar.

XVII əsr ispan ədəbiyyatında qonqorizmin və ya kulteranizmin yaradıcısı Don Luis de Qonqoranın ədəbi fəaliyyəti barokkonun təzahür forması kimi diqqəti cəlb edir. İspan ədəbiyyatında barokko bir çox yazıçıların yaradıcılığında özünü büruzə verir. Müəlliflər yeni ədəbi-tarixi şəraitdə ispan dramaturgiyasında Fransisko Kevedonun, Luis Veles de Gevaranın, Don Pedro Kalderonun, Lope de Veqanın yaradıcılıqlarını yeni ədəbi hadisə kimi qiymətləndirmiş, ispan ədəbiyyatında tutduqları yeri müəyyənləşdirmişlər. Onlar göstərmişlər ki, Lope de Veqa yaradıcılığının ilk dövrlərini Kalderonun təsiri altında yazıb- yaratsa da, sonradan dram nəzəriyyəçisi kimi yeni ispan dramaturgiyasının yaradıcısına çevrilmişdir. O, “Qoyun bulağı”, (“Sevilya ulduzu”, “Bağbanların iti”, “Sevgi”, “İntiqam olmadan ədalət”, “Belisa kimi qoçaq”, “Amalfi Stevardın düşesi”, “Lo Fingido Verdadero”, “La Quardianın günahsız uşağı”, “Madness Valensiyada”, “Valensiya divanələri”) dram və s., “Arkadiya” və “Doroteya” adlı fantastik nəsr əsərləri ilə ispan ədəbiyyatının və dramaturgiyasının estetik görüşlərini əsaslandırmış və dəyişdirmişdir.

Dərs vəsaitində XVII əsr ingilis ədəbiyyatı bölməsi humanist ənənələr əsasında yaranan bədii yaradıcılıq kimi qiymətləndirilir (Çünki bu ədəbiyyatın əsasında K.Marlo, V.Şekspir, R.Qrin, D.Doni yaradıcılığı dayanır. XVII əsr ingilis humanizminin ənənələrini davam etdirən yazıçılar arasında C.Milton, B,Conson kimi sənətkarların və başqalarının adını çəkmək olar. Bu sənətkarlardan Ben Conson və Con Milton yaradıcılığına diqqət yetirən müəlliflər onların əsərlərindəki humanizmi, insana göstərilən qayğını önə çəkmiş, əxlaq prinsiplərinin mahiyyətini açmağa çalışmışlar. Xüsusilə, Con Miltonun “İtirilmiş cənnət”, “Qaytarılmış cənnət” və “Mübariz Samson” əsərlərində insan zamanın əsas füquru kimi təsvir edilir.

XVIII əsr ingilis ədəbiyyatı dünya ədəbiyyatı tarixinə sentimentalizm, maarifçilik, romantizm kimi cərəyanları bəxş etmişdir. İngilis sentimentalizminin məzmunu Lorens Sternin “Sentimental səyahət” romanında parlaq şəkildə öz əksini tapır. Daniel Defo isə maarifçi və realist ədəbiyyatın nümayəndəsi olaraq dərs vəsaitində təhlilə cəlb olunur. Romantik ədəbiyyatın nümayəndələri kimi, S.Riçardson, H.Fildinq, O.Qoldsmit və başqalarının romanları haqqında məlumat verilir. Bəllidir ki, ingilis ədəbiyyatında C.Svift “Qulliverin səyahəti” romanı ilə satirik realist ədəbiyyatın ən yaxşı nümayəndəsi kimi çıxış edir. Məhz müəlliflər ingilis ədəbiyyatında maarifçi-realist,




sentimental və romantik yazıçıların əsərlərini ədəbi hadisə kimi qiymətləndirmişlər. İngilis maarifçiliyi isə öz dövrünün ədəbi əsərlərinin və yazıçıların bədii-fəlsəfi dünyagörüşlərinin mahiyyətini və məzmununu açmağa kömək edir. İngilis burjua inqilabının və fransız maarifçiliyinin təsiri nəticəsində D.Defo, C.Svift, A.Pop, R.Stil, C.Addison, H.Fildinq, S.Riçardson, R.Şeridan kimi ustadların yaradıcılığında maarifçilik görüşlərinə rast gəlirik. Müəlliflər ingilis maarifçiliyinin nümayəndələrinin yaradıcılığını bu ideya cərəyanın üç istiqaməti üzrə nəzərdən keçirmişlər. İngilis maarifçiliyi üzrə D.Defoya, C,Sviftə, H.Fildinqə həsr edilən tədqiqatlar öz quruluşuna görə mükəmməlliyi ilə seçilir. İngilis sentimentalizmi üzrə C.Tomsona, E.Yunqa, T.Qreyə, L.Sternə həsr edilən tədqiqatlar isə yığcam təsir bağışlayır.

XVIII əsr öz tarixi ideyaları ilə ədəbiyyat tarixində xüsusi yer tutur. Əsərin ikinci hissəsi Avropa ədəbiyyatının XVIII əsr dövrünü əhatə edən ingilis, alman və fransız ədəbiyyatlarının nəzəri məsələləri ilə bağlıdır. XVIII əsrin Avropa ədəbiyyatlarını bir-birinə bağlayan maarifçilikdir. Bunu nəzərə alaraq, müəlliflər maarifçilik haqqında elmi-nəzəri biliyi oxucuya xeyli ətraflı şəkildə təqdim edirlər. Onlar “Maarifçilik nədir?” - sualının cavabını maarifçiük və burjuaziya problemində axtarmış, bu haqda mükəmməl söz deməyə çalışmışlar. Onlar göstərirlər ki, Avropa maarifçiliyi ideologiya olub, müxtəlif ədəbi cərəyanların (maarifçi klassisizm, maarifçi realizm və sentimentalizm, romantizm) əsasını təşkil etmişdir. Dərs vəsaitində Avropa maarifçiliyinin ingilis, fransız və alman qollarına məxsus xüsusiyyətlərinin geniş təhlillərini görürük. Təsir dairəsinə görə də bu yaradıcılıq sistemi başqa ölkələrin ədəbi simalarının maarifçi-estetik görüşlərinə istiqamət verınişdir. Fransız maarifçilərindən Volterin, Didronun, Russonun, Bomarşenin, Lesajın, d’Alamberin və başqalarının maarifçi-fəlsəfi görüşlərinin ədəbiyyata gətirdikləri mövzu yeniliklərini digər fəlsəfi cərəyanların nümayəndələrinin yaradıcılıqları ilə müqayisə edəndə, daha aydın görmək olar. Volter “Henriada”, “Kandid”, “Vavilon şahzadəsi”, “Orlean bakirəsi”,”Məhəmməd, yaxud fanatizm”, Didro “Fəlsəfi düşüncələr”, “Skeptikin gəzintisi və ya Allen”, “Didronun d’Alamber ilə söhbəti” və s. “D’Alamberin yuxusu”, “Rahibə”, ’’Fatalist Jak və onun ağası”, “Ramonun qardaşı oğlu”, Russo Volterə yazdığı “Filosof məktubları”, “Elm və incəsənət haqqında mühakimə”, “Yeni Elioza”, “Emil, yaxud tərbiyə haqqında”, Lesaj “Çolaq şeytan”, “Tyrkare”, “Jil Blas”, Bomarşe “Yevgeniya”, “İki dost”, “Fiqaronun toyu”, “Sevilya ulduzu”, Monteskyö “İran məktubları”, “Qanunların ruhu haqqında” əsərlərində özlərinin fəlsəfi fikirlərini əks etdirmişlər.

Dərs vəsaitində Avropa maarifçiliyinin ingilis, fransız və alman qollarına məxsus xüsusiyyətlərinin geniş təhlillərini görürük. Geniş spektrinə görə fransız maarifçiliyi həm fəlsəfi, həm siyasi, həm də ədəbi rol oynamaqla yanaşı, tarixdə yaşamaq hüququnu da əldə etmişdir. Bütün bu məsələlər ‘’XVII-XVIII əsrlər Qərb ədəbiyyatı”nda maraqla oxunur. Fransız maarifçiliyinin nümayəndələrinin ədəbi-bədii və fəlsəfi görüşlərinə geniş yer verilir. Yaranma dövrünə görə, fransız maarfçiliyi ingilis maarifçiliyindən daha əvvəl formalaşmışdır, həm də ingilis və alman maarifçilərinin yetişməsində böyük rol oynamışdır. Müəlliflər, doğru olaraq fransız maarifçiləri ilə ingilis və alman maarifçilərinin baxışlarını qarşılıqlı müqayisə etmək yolu ilə tədqiqata cəlb etmişlər. Bu tədqiqatdan göründüyü kimi, Fransua Mari Volter, Deni Didro, Jan Batist Russo, Şarl Lui de Monteskyö, Bomarşe fransız maarifçiləri kimi Fransaya, A.Pop, D.Defo, R.Stil, C.Addison, C.Lillo kimi maarifçilər ingilis xalqına, XVIII əsr alman ədəbiyyatından bəhs edilən səhifələrdə gördüyümüz H.Lessinq, I.Höte, F.Şiller və başqaları öz yaradıcılıqları ilə alman xalqına xidmət etmişlər.

Əsərdə orta əsrlər dünya ədəbiyyatının ən yaxşı bədii nümunələri təhlilə cəlb olunub, müəyyən parçaların verilməsi çox maraqlı olmuşdur. Bunlar tələbələrin işini yüngülləşdirmək məqsədi daşıyır. “Robinzon Kruzo” romanından bir parçanı, Volterin “Məhəmməd, yaxud fanatizm” əsərinin qısa məzmununu, Bualonun “Poeziya sənəti” əsərindən birinci nəğməni bu sıradan qəbul etmək olar. Təqdim edilən dərs vəsaiti, az sayda nöqsanlarının olmasına baxmayaraq, dünya ədəbiyyatı ixtisası üzrə yazılan mühüm kitablardan - vəsaitlərdən biridir. İnanıram ki, dərs vəsaiti geniş auditoriyanın diqqətini cəlb edəcək və stolüstü kitaba çevriləcək. “XVII-XVIII əsrlər Qərb ədəbiyyatı” kitabına daha uzun ömür arzulayırıq.

***Ramil Əliyev,***
***filologiya üzrə elmlər doktoru, professor***